AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU
MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ
birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ____________________ Soyad ____________________

# 10

# AZƏRBAYCAN DİLİ və ƏDƏBİYYAT

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1-6-cı tapşırıqları mətnə əsasən cavablandırın.**

**"Tonyukuk"un şərəfinə yazılmış abidə**

"Tonyukuk" abidəsi 1897-ci ildə Y.N.Klements tərəfindən Ulan-Batorun 66 km cənub-şərqində Nalayxa adlanan yaşayış məntəqəsi ilə Tola çayının sağ sahili arasında Bayın-Sokto adlanan yerdə aşkara çıxarılmışdır. Abidə kompleksi iki daşdan ibarətdir: cənub və şimal. Cənubdakı daşın hündürlüyü 1 m 70 sm-dir və bu daşda 1–36-cı sətirlər yerləşdirilmişdir. Şimaldakı daşın hündürlüyü 1 m 60 sm-dir, bu daşda 37–62-ci sətirlər həkk olunmuşdur. 62 sətirdən ibarət olan bu abidə haqqında H.Orkun haqlı olaraq yazır ki, «Tonyukuk» abidəsində 18-ci sətrə qədər İlteris xaqandan, 48-ci sətrə kimi Kapağan xaqandan, sonrakı sətirlərdə isə Tonyukukun özündən danışılır.

Tədqiqatçıların bir qismi abidənin təxminən 716-cı ilə aid olduğunu söyləyir, V.Tomsen isə yazır ki, bu abidə 725-ci ildə qoyulmuşdur. 1898-ci ildə abidənin fotosurəti ilk dəfə çıxarılmışdır. Bunların əsasında onu ilk dəfə V.V.Radlov oxumuş, tərcümə və nəşr etmişdir. Sonralar Q.Ramstedt (1909), B.Y.Vladimirtsev (1925), P.Aalto (1957), Y.İ.Ubryatova və V.M.Nadelyayev Tonyukuk abidəsini tədqiq etmişlər. Bir müddət sonra Q.Ramstedt vasitəsilə Tonyukuk abidəsinin mükəmməl fotosurətini əldə edən V.Tomsen onu tərcümə etmişdir. Daha sonra H.N.Orkun, S.Y.Malov və M.Ergin də bu abidəni tərcümə və nəşr etmişlər. 1957-ci ildə monqollar abidənin daxil olduğu kompleksdə arxeoloji tədqiqatlar aparmışlar.

<u>Digər Koşo-Saydam abidələrinin (Kül tigin və Bilgə xaqan abidələri) mətnlərinə nisbətən Tonyukuk abidəsi bəzi fərqli qrafık və dil xüsusiyyətlərinə malikdir. Tonyukuk abidəsinin üslubu daha az dəbdəbəlidir. Tonyukuk daha sadə dildə, xalq dilində danışmağa çalışır: mükalimədən, atalar sözü, zərb-məsəllərdən istifadə edir.</u>

Tonyukuk üç türk xaqanının - İlteris, Kapağan və Bilgə xaqanın vəziri olmuşdur. Öz dövrünün çox müdrik, mötəbər şəxsiyyətlərindən olan Tonyukuk Çində mükəmməl təhsil almışdır. Bu barədə abidədə Tonyukukun öz dilindən deyilir: *«Bilgə Tonyukuk bən özüm Tabğaç ilinə kılıntım. Türk bodun Tabğaçka körür erti»* (Müdrik Tonyukuk mən özüm Tabğaç elində tərbiyə (təhsil) aldım. Türk xalqı Tabğaça tabe idi).

Tonyukuk öz ağıllı məsləhətləri ilə Göytürk dövlətinin xaqanlarına yol göstərmiş, baş verəcək hadisələri qeyri-adi uzaqgörənliyi ilə duymuş, bir çox qanlı döyüşlərin qarşısını tədbirlə almağa müvəffəq olmuşdur. Türk dövlətinin sərhədlərinin genişləndirilməsində, xarici siyasət sahəsində də onun əvəzsiz xidmətləri olmuşdur**.** L.N.Qumilyev qədim türklərdən danışarkən Tonyukuku «Türklərin Bismarkı» adlandırmışdır.

«Tonyukuk» abidəsinin müəllifi Tonyukukdur və mətn onun dilindən söylənilir. Abidənin mətnində türk xaqanları, onların gördüyü işlərdən danışılır. Tonyukuk yeri gəldikcə türk dövlətinə xidmət etdiyi illərdə öz həyatından və siyasi fəaliyyətindən də bəhs edir.

**1. Yanlış fikri müəyyən edin.**

A) Abidənin qoyulması tarixi ilə alimlərin ehtimalları yekdil deyildir.

B) Abidədəki mətn Tonyukukun dilindən söylənmişdir.

C) Kapağan xaqandan həm cənub, həm də şimal daşında bəhs edilmişdir.

D) Abidə kompleksinin şimal daşı həm hündürlüyünə görə, həm də sətirlərin sayına görə cənub daşından geri qalır.

E) Tonyukuk özü haqqında abidə kompleksinin cənub daşında danışmışdır.

**2. Hansı hadisə xronoloji ardıcıllıqda üçüncü sırada gəlir**?

A) Abidənin aşkar edilməsi

B) Abidənin ilk dəfə oxunması

C) Abidənin ilk fotosurətinin çıxarılması
D) B.Y.Vladimirtsevin abidəni tədqiq etməsi
E) Abidə kompleksində arxeoloji tədqiqat aparılması

**3. Mətndə hansı məlumatı tapmaq olmur?**
A) “Tonyukuk” abidəsinin ehtiva etdiyi məzmun
B) Abidənin hansı alimlər tərəfindən tədqiq edilməsi
C) “Tonyukuk” abidəsinin üslubunun “Kül tigin” və “Bilgə xaqan” abidələrinin mətnlərinə nisbətən sadə olmasının səbəbi
D) Tonyukukun Göytürk xaqanlığında böyük nüfuz qazanmasının səbəbi
E) Abidənin fiziki xüsusiyyətləri

**4. Mətndə altından xətt çəkilmiş abzasın müddəası hesab oluna bilməz:**
A) Tonyukuk abidəsi o dövrün xalq danışıq dilinə aid materiallar ehtiva edir.
B) Tonyukuk abidəsi də Kül tigin və Bilgə xaqan abidələri kimi Koşo-Saydam abidələrinə daxildir.
C) Kül tigin və Bilgə xaqan abidələrində Tonyukuk abidəsi ilə müqayisədə daha dəbdəbəli üslubdan istifadə edilmişdir.
D) Kül tigin və Bilgə xaqan abidələrində atalar sözü və zərb-məsəllərdən istifadə edilməmişdir.
E) Mükalimə, atalar sözləri, zərb-məsəllər xalq dilinə xas xüsusiyyətlər sayılır.

**5. Mətnə görə aşağıdakı fikirlərdən biri düzgün hesab oluna bilər.**
A) Abidənin araşdırılması ilə B.Y.Vladimirtsev, L.N.Qumilyev, P.Aalto, Y.İ.Ubryatova və V.M.Nadelyayev də məşğul olmuşdur.
B) Monqollar “Tonyukuk” abidəsinin daxil olduğu kompleksdə abidənin tapıldığı ərəfədə arxeoloji tədqiqatlar aparmışlar.
C) S.Y.Malov “Tonyukuk” abidəsini Tomsendən əvvəl tərcümə etmişdir.
D) Abidənin V.V.Radlov və Tomsen tərəfindən oxunmasında və tərcüməsində Q.Ramstedin çıxardığı fotosurət əhəmiyyətli rol oynamışdır.
E) “Bilgə Tonyukuk bən özüm Tabğaç ilinə kılıntım. Türk bodun Tabğaçka körür erti” - fakt-cümləsində nəticə-səbəb əlaqəsi tapmaq mümkündür.

**6. Mətndə hansı sualın cavabı yoxdur?**
A) Tonyukuk harada təhsil almışdır?
B) Çinin qədim adı nə olmuşdur?
C) “Tonyukuk” abidəsi dəqiq hansı tarixdə qoyulmuşdur?
D) Tonyukuk türk dövlətinə hansı xidmətləri göstərmişdir?
E) “Tonyukuk” abidəsi harada tapılmışdır?

**7. Hansı cümlədə isimdən düzəlib ismin xüsusiyyətini daşıyan sifətlə yanaşı, sifətin xüsusiyyətini daşıyan isim də var?**
A) Gələnlər əvvəlcə kəndin daş divarları ilə ciddi maraqlandılar.
B) Müəllim çalışqanlara gümüş qələm hədiyyə etdi.
C) Qəhrəman döyüşçülər doğma torpaqlarımızı geri qaytarmaqda böyük igidlik göstərdilər.
D) Səhər yeməyi vaxtı evdəkilər mənim aldığım qızıl saatı bəyəndilər.
E) Yuxarılar məsələni araşdırıb kəndin torpaq yolunu asfaltla əvəz etməyə söz verdilər.

**8. Kökü fərqli olan sözü müəyyənləşdirin.**
A) boyaq B) boyaçı C) boyalı
D) boyadakı E) boyasız

**9. Uyğunluğu müəyyən edin.**
1. Təsirlik halın olduğu cümlədə mütləq ya tamamlıq, ya da zərflik olmalıdır - ***doğru***
2. *Camaat, əhali, ictimaiyyət* isimlərindən başqa, digər isimlər cəm şəkilçisi qəbul edə bilər - ***yanlış***
3. Miqdar saylarından sonra gələn isimlər cəmdə işlənə bilməz - ***doğru***
4. Əvəzliklər isimləri əvəz etsə də, onu adlandıra bilmir - ***doğru***
5. Numerativ sözlər aid olduğu sayla birlikdə bir cümlə üzvü kimi təhlil olunur – ***yanlış***

A) 1, 3, 5 B) 2, 4 C) 1, 4
D) 3, 4, 5 E) 2, 3

**10. Fikirlər hansı cümləyə aiddir?**

- *Mübtəda keçmiş zaman mənalı feili birləşmə ilə ifadə olunub.*
- *Xəbər indiki zaman mənalı feili birləşmə ilə ifadə olunub.*
- *İkinci dərəcəli üzv işlənməmişdir.*

A) İclasda iştirak edənlər otağa daxil oldular.
B) Qulaq asdıqlarım ən xoşuma gələnlərdir.
C) Birinci səhifədə yazılmışlar sonda da təkrarlanacaqdır.
D) Kəndin kənarında gördüklərim şəhərdən gələnlərdir.
E) Gözlərimlə gördüklərim məni heyran etdi.

**11. Hansı cümlələrdə qoşmanın işlənib işlənməməsi sintaktik təhlildə fərq yaradır?**

1. Qorxudan titrəyərək meşənin içindən yola tərəf qaçırdı.
2. Zalım düşmənə qarşı xalq nifrət bəsləyirdi.
3. Səndən ötrü tez gəlmişəm.
4. İrəliyə doğru addımladıqca vahimə bizi bürüyürdü.
5. Bunu qonşumuz Əli üçün alıb.

A) 2, 4, 5 B) 1, 2, 4 C) 4, 5
D) 1, 3, 4 E) 3, 5

**12. Keyfiyyət bildirən sifətə aid mürəkkəb sayın işləndiyi cümləni müəyyənləşdirin.**

A) Uşaq evinə atılmış yüzlərcə körpə var idi.
B) Müharibədən sonra on minlərcə xain edam edildi.
C) Bir sıra kəndlilərə əlavə alətlər verildi.
D) Üç-dörd nəfər ziyalı verilişin qonağı idi.
E) Məsələnin qaranlıq qalması çox müzakirələrə səbəb oldu.

**13. Uyğunsuzluğu müəyyən edin.**

A) Tez, gec sözləri həm zaman, həm də tərzi-hərəkət zərfi kimi işlənə bilər- ***doğru***
B) Zərf yalnız təsriflənən feillərə aid olur- ***yanlış***
C) Bəzən yer zərfi kimi işlənən sözlər cümlədə tərzi-hərəkət zərfi kimi də işlənə bilər-***yanlış***
D) "Dünən hava çox soyuq idi" cümləsinin xəbəri ismi xəbər olduğu üçün cümlədə zərf yoxdur- ***yanlış***.
E) Bəzi zərflər feil, qoşma ilə omonim ola bilər - ***doğru***.

**14. Cümlələrin birində omonim şəkilçi üç müxtəlif sözdüzəldici funksiyada işlənmişdir.**

A) Səpin işləri bitəndən kəndin sakinləri görünmürdü.
B) Utancaq uşaq yelləncəkdən enib sevincək evə tərəf qaçdı.
C) Badamı gözlərindəki kədər adamı duyğulandırırdı.
D) Arıq uşağın sökük paltarını gizlətməyə çalışdığını gördük.
E) Gələn qonaqları qəsdən evdən kənarda qarşıladılar.

**15. Eyni köməkçi nitq hissəsinə aid sözlərin işləndiyi cümlələrin uyğunluğunu müəyyən edin.**

1. İclasdan sonra qonaqlar çay içməyə dəvət olundu.
2. Dostumun da bu mövzudakı fikirləri mənə maraqlı idi.
3. Bəs sizin fikirlərinizi necə əldə edə bilərik?
4. Cümlənin quruluşca iki növü var.
5. Onun necə gözəl, insanı valeh edən səsi var.
6. Körpüdən əvvəl mən keçdim.

A) 1-4; 3-5 B) 1-6; 3-5 C) 2-5; 3-4
D) 2-3; 4-6 E) 1-4; 2-3

**16. İ.Nəsiminin "Ağrımaz" şeirinə aid doğru fikirləri seçin.**

1. Şeir əruz vəznində, qəzəl janrında yazılmışdır.
2. Şeirdə həm qoşa, həm də çarpaz qafiyələrdən istifadə olunub.
3. Əsərin qəhrəmanı doğru və ədalətli yol tutmuşdur.
4. Lirik qəhrəman qətiyyətli və dönməzdir.
5. Müəllif insanları zahidin sözlərinə diqqət yetirməyə və əməl etməyə çağırır.

A) 2, 5 B) 1, 3 C) 2, 4, 5
D) 1, 3, 4 E) 1, 2, 4

**17. Doğru olanları müəyyən edin.**

1. Lirik qəhrəmanın duyğu və düşüncələri həmişə şairin duyğu və düşüncələri ilə üst-üstə düşmür.
2. Monoloq, əsasən, yazıçının (dramaturqun) təbliğ etdiyi ideyanın açılmasına xidmət edir.
3. Yazıçı bu və ya digər insanlardakı oxşar cəhətləri seçərək bir surətdə ümumiləşdirir ki, buna da xarakter deyilir.
4. Realist əsərlərdə şair və yazıçılar insanın məişət tərzini görmək istədikləri kimi canlandırırlar.
5. Həyat hadisələrini təsvir etmək və onları ümumiləşdirmək üçün yazıçının əsas götürdüyü prinsip ədəbi cərəyan adlanır.

A) 1, 5 B) 3, 4 C) 1, 2, 5
D) 2, 3, 4 E) 1, 2

**18. "Koroğlu" dastanında "Koroğlu və Bolu bəy" qolundan verilmiş hadisə ardıcıllığını düzgün müəyyənləşdirin.**

1. Aşıq Cünunun Çənlibelə qoşun yeridilməsi xəbərini Çənlibel dəlilərinə xəbər verməsi
2. Xoca Əzizin yolda rast gəldiyi hadisə ilə bağlı Çənlibelə xəbər gətirməsi
3. Həsən paşanın Bolu bəyin yazdığı naməyə əsəbiləşməsi
4. Koroğlunun Bolu bəyin əmri ilə suya salınması

A) 1, 4, 3, 2 B) 4, 2, 1, 3 C) 1, 2, 3, 4
D) 3, 4, 2, 1 E) 2, 1, 4, 3

**19. Verilmiş nümunələrdən heç birinin müəllifi olmayan şairi müəyyən edin.**

*Sən uşaq könlümün eşqi, ilqarı,*
*Andıydın, ustadım, dostum, yoldaşım!*

*Mən səndən bir yaşıl budaq istədim,*
*Sən mənə bəxş etdin zümrüd meşələr.*

*Hər daşını görənlər dirçələr Qarabağda,*
*Min ilin yorğunu da dincələr Qarabağda.*

*Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalıdır,*
*Göy rəngimdə türklük yaşar – millətimin amalıdır.*

A) Mirvarid Dilbazi
B) Hikmət Ziya
C) Əliağa Kürçaylı
D) Bəxtiyar Vahabzadə
E) Xəlil Rza Ulutürk

**20. Nöqtələrin yerinə uyğun gələn əsər adlarının ardıcıllıqla qeyd olunduğu bəndi müəyyən edin.**

*"........" əsərində ədalətsizliyin hökm sürdüyü cəmiyyətdə şəxsiyyət azadlığının necə boğulduğu, məhvə məhkum olduğu təsirli boyalarla əks etdirilmişdir.*

*"......." pyesində milli birlik ideyasının zəruriliyi ön plana çəkilmiş, problemin inandırıcı bədii həlli verilmişdir.*

*"......." əsərində dövrün mühüm ictimai-siyasi qüsurları, mənəvi aşınmalar və bunun səbəbləri yüksək romantik-bədii boyalarla əks etdirilmişdir.*

A) "Bakı müharibəsi", "İblis", "Anamın kitabı"
B) "Əsir Azərbaycanım", "Aydın", "İblis"
C) "Aydın", "Anamın kitabı", "İblis"
D) "Anamın kitabı", "Ədirnə fəthi", "Əsir Azərbaycanım"
E) "Azərbaycan bayrağına", "İblis", "Həyat eşqi"

**21. Seyid Əzim Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsəri ilə bağlı doğru fikirləri seçin:**

1. Əruz vəzninin rəməl bəhrində yazılmışdır.
2. Əsərdə şairin maarifçilik ideyaları öz əksini tapıb.
3. Şeirdə elmin, təhsilin səmərəsi haqqında fikirlər diqqəti cəlb edir.
4. "Molla Nəsrəddin" jurnalında çap etdirmişdir.

5. Həyatda müşahidə edilən nöqsanların, eyiblərin səbəbləri və onlardan xilas olmağın yolları əsərdə göstərilmir.
6. Əsər şeir şəklində yazılsa da, onda məktuba xas olan cəhətlər var.

A) 4, 5, 6 B) 1, 2, 3 C) 2, 3, 6
D) 1, 4, 5 E) 2, 3, 4

**22. M. İbrahimovun "Azad" hekayəsi ilə bağlı yanlış fikri müəyyən edin.**
A) Əsər Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatından bəhs edir.
B) Azad da, Fərda da vətənlərini sevən obrazlardır.
C) Azad demokrat hökumətinin yaratdığı fədai dəstələrindən birinə başçılıq edir.
D) Anası ilə Təbrizə köçdükdən sonra Fərda Mərkəzi Komitədə çalışır.
E) Fərda Azadı görmək üçün kənddən Təbrizə gəlir, lakin onun Zəncanda olduğunu öyrənir.

**23. Azərbaycan şifahi xalq yaradıcılığı ilə bağlı verilənlərdən səhv olanları müəyyənləşdirin.**
1. "Səməndər quşu" əfsanəsində oda inam, quşa tapınma motivləri öz əksini tapıb.
2. Heyvan və quş adları ilə bağlı əfsanələr zoonimik, yer adları ilə bağlı əfsanələr etnonimik, səma cisimləri haqqında əfsanələr kosmoqonik əfsanələr adlanır.
3. Rəvayətlər tarixən baş vermiş, bu və ya digər şəxsiyyətlə bağlı olan real həyat hadisələri zəminində yaranır.
4. Tapmacalarda əşyanın məcazi təsviri, onun səciyyəvi əlamətlərinin təqdimi əsas yer tutur.
5. Oxşamalar yumoristik məzmuna malik olub, uşaqların nitqinin, tələffüzünün inkişafına kömək edir.
6. "Qanadlı sözlər" dedikdə, əsasən, atalar sözü və məsəllər nəzərdə tutulur.
7. "Qodu-qodu" il quraqlıq keçəndə yağışçağırma mərasimində ifa edilən nəğmədir.

A) 2, 6, 7 B) 3, 4, 6 C) 1, 2, 7
D) 3, 4, 5 E) 2, 5, 7

**24. N.Gəncəvinin "İskəndərnamə" əsəri ilə bağlı doğru və yanlış fikirlərin hansı variantda düzgün qruplaşdırıldığını müəyyən edin.**
1) *O hədsiz ordudan qorxdu hökmüran*
*Qorxusuz olurmu ağıllı insan?* − İskəndərin və onun qoşununun Bərdəyə gəldiyini eşidən Nüşabə haqqındadır.
2) *Biz uca dağlara qaçıb qorxudan*
*Quştək ağaclarda salarıq məkan* − Misirlilər Zəncilərin hücumlarından İskəndəri xəbərdar edirlər.
3) "*Dovşanını hər bir yerin – məsəl var, −*
*Yenə də o yerin tazısı tutar* − Daranın xain adamları onu öldürmək üçün İsgəndərlə peyman bağlayır, İskəndərin xatirinə bu sözlər gəlir.
4) *Tədbirə ehtiyac duyduğu zaman*
*Açıb oxuyardı bir-bir onlardan* − İskəndərin nəsihətnamələri oxuması nəzərdə tutulur. Bu nəsihətnamələr 3 alim – Ərəstu, Əflatun və Sokratın yazdığı nəsihətlərdir.
5) *Onunla et çətin işdə məşvərət*
*Qılıncdan kəskindir gözəl məsləhət* – Feyləqus bu sözləri İskəndərə Ərəstunu nəzərdə tutaraq söyləyir.
6) *"Qalx, − dedi − bəxtini sına, zamandır,*
*Belə əjdahanı məhv etmək şandır* – Ərəstu İskəndərə Zənci oldusu ilə vuruşmaq üçün Misirə getməyi məsləhət verir.

A) 1, 3, 5 – 2, 4, 6
B) 1, 2, 5 – 3, 4, 6
C) 2, 4 − 1, 3, 5, 6
D) 2, 3, 5, 6 – 1, 4
E) 1, 5, 6 − 2, 3, 4

**25. Atalar sözləri və ya məsəllərin hansı əsərdən və kimlərin dilindən olduğunu müəyyən edin.**

*1.”Daldan atılan daş topuğa dəyər”*
*2. “Yönlü oğul neylər ata malını,yönsüz oğul neylər ata malını”*
*3. “Bir könlü ki tikməyəcəksən, niyə yıxırsan?”*
*4. “İsgəndərə qalmayan dünya kimə qalacaq?”*

a. M.İbrahimov “Azad” əsəri, Fərdanın dilindən
b. Elçin “Talvar” əsəri, Əliabbasın dilindən
c. H.Cavid “Ana” əsəri, İzzətin dilindən
d. S. Rəhimov “Qara torpaq və sarı qızıl” əsəri, Kəndin ağsaqqalının dilindən

A) 1-c, 2-d, 3-a, 4-b
B) 1-a, 2-c, 3-d, 4-b
C) 1-a, 2-b, 3-c, 4-d
D) 1-d, 2-a, 3-b, 4-c
E) 1-c, 2-d, 3-b, 4-a